

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 yanvar 2025-ci il №6 (2915) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

Dövlətimizin başçısı Türkiyənin Bolu vilayətinin Kartalkaya dağ-xizək mərkəzinin otelində baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana dərin hüznlə başsağlığı verib.

O, bu dəhşətli faciədə həlak olanlara Uca Allahdan rəhmət diləyib və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayıb.

Prezident İlham Əliyev yanvarın 21-də facia ilə əlaqədar Türkiyə Respublikasının Prezidentinə başsağlığı məktubu göndərdiyini də qeyd edib.

Türkiyə Prezidenti diqqətə və başsağlığına görə minnətdarlığını bildirib və qeyd edib ki, Türkiyə və Azərbaycan daim bir-birilərinin yanındadırlar, bundan sonra da həmişə belə olacaqdır.

Telefon danışığı əsnasında dövlət başçıları ikitərəfli münasibətlərin müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıblar.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda bir sıra görüşlər keçirib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda "Oliver Wyman Group" şirkətinin Baş icraçı direktoru Nik Studer ilə görüşüb.*

Nik Studer "OliverWyman Group" şirkətinin beynəlxalq strateji idarəedici şirkət olaraq ölkəmizdə müxtəlif qurumlarla mümkün əməkdaşlıq istiqamətlərinə toxunub, Azərbaycanın iqtisadi transformasiya prosesinin, sığorta, maliyyə bazarının müxtəlif istiqamətlərinin inkişafı, enerji sektorunda, o cümlədən ənənəvi və yaşıl enerji sahələrində həyata keçirilən layihələrə, kənd təsərrüfatı məhsullarının ixracına, bölgədə yeni ticarət imkanlarını əhatə etməklə dəyər zəncirinin lokallaşdırılmasına maraq göstərdiklərini qeyd edib. O, Azərbaycanın əldə etdiyi uğurları yüksək qiymətləndirib.

Dövlətimizin başçısı şirkətin Azərbaycana marağını dəstəkləyərək, ölkəmizin müvafiq qurumları ilə "Oliver-Wyman Group" arasında əməkdaşlığın qurulması məsələlərinə toxunub.



* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ilə görüşüb.

Edqars Rinkeviçs dövlətimizin başçısı ilə bundan əvvəlki görüşlərini məmnunluqla xatırlayıb.

Latviya Prezidenti bugünkü görüşün ikitərəfli əlaqələrin müzakirəsi üçün yaxşı imkan yaratdığını deyib.

Edqars Rinkeviçs təyyarə qəzasında həlak olanlarla bağlı Azərbaycan Prezidentinə başsağlığı verib.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev də öz növbəsində bugünkü görüşün əməkdaşlığımızın perspektivlərinin müzakirəsi baxımından önəmini vurğulayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüşüb.

Görüşdə Azərbaycan ilə "The Goldman Sachs Group Inc." şirkəti arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə görüşüb.

COP29-da Azərbaycana səfərini məmnunluqla xatırlayan Əbdüllətif Camal Rəşid bu mühüm tədbirin uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb. İraq Prezidenti, eyni zamanda, təyyarə qəzası ilə əlaqədar bir daha başsağlığını ifadə edib.

Prezident İlham Əliyev başsağlığına görə minnətdarlığını bildirib.

Dövlətimizin başçısı İraq Prezidenti ilə görüşlərini və bu görüşlər əsnasında aparılmış müzakirələri məmnunluqla xatırlayıb.

**(Ardı 2-ci səhifədə)**

## Sıra meydanından qələbəyə gedən yol



"N" hərbi hissəsinin sıra meydanında günün nizam qaydasına uyğun olaraq hərbi qulluqçularla keçirilən sıra hazırlığı məşğələsinin şahidi olduq. Məşğələ rəhbərinin izah etdiyi elementləri hərbi qulluqçular düzgün şəkildə təkrarlayırdılar. Onların sıra hərəkətlərini eyni anda icra etmələrini, əlləri və ayaqlarının nizami şəkildə hərəkətini məşğələnin sonunadək kənardan izlədik. Məşğələ sonunda hərbçilərimizə yaxınlaşaraq onlarla söhbət etmək imkanımız oldu.

Məşğələ rəhbəri gizir Xəyyam Qədirov sıra hazırlığının əhəmiyyətindən danışaraq vurğuladı ki, keçirilən məşğələlərin hərbçilərin intizamının artırılmasında da rolu əvəzsizdir. "Hərbi xidmətin əsas tərkib hissələrindən biri də sıra hazırlığıdır. Təsdiq olunmuş günün nizam qaydasına uyğun olaraq müəyyən edilmiş saatlarda hərbi qulluqçularla sıra elementlərini məşq edirik. Digər dərslərdə olduğu kimi, sıra hazırlığı məşğələsində də böyük həvəslə iştirak edən hərbi qulluqçularımız yüksək əzmkarlıq nümayiş etdirirlər. Sıra, iki cərgəli sıra, səf, cərgə, kolon, cinah, distansiya kimi sıra nizamnaməsinin tələblərini hər bir hərbi qulluqçu düzgün dərk edir.

**(Ardı 3-cü səhifədə)**

## "Ordunun əsas sütunu sağlam və iradəli əsgərlərdən ibarətdir"

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev idmanın cəmiyyətin inkişafında, gənclərin tərbiyəsində və sağlam həyat tərzinin təşviqində mühüm rolunu daim vurğulamışdır. Onun sözləri ilə desək: "İdman sağlamlıqdır, idman gözəllikdir, idman mədəniyyətdir. İdman, hər bir insanın həyatında mühüm yer tutmalıdır".

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısının nəticəsi olaraq idmançılarımız beynəlxalq arenalarda keçirilən idman yarışlarında uğurla iştirak edir, fəxri kürsünün ən yüksək pilləsinə layiq görülürlər.

Bu fikirlər Azərbaycan Ordusunda şəxsi heyətin gündəlik fəaliyyətində öz əksini tapır. Çünki hərbçilər üçün fiziki və mənəvi hazırlıq qələbənin əsas amillərindən biridir. Müasir döyüş texnologiyaları, çətin coğrafi və iqlim şəraitində xidmət etmə tələbləri hərbçilərin fiziki və psixoloji dayanıqlığını zəruri edir. İdman yalnız fərdi hazırlığı deyil, eyni zamanda, kollektiv ruhu, dözümlülüyü və iradəni möhkəmləndirir.

"N" hərbi hissəsində hərbi qulluqçularla fiziki hazırlıq zamanı onların idmana münasibəti, fiziki hazırlığın hərbi xidmətlərinə təsiri barədə söhbət etdik.

Baş gizir Zamiq Əliyev günün nizam qaydasına əsasən hərbi qulluqçuların fiziki hazırlıq məşqlərinə cəlb olunmasından danışdı. Onun sözlərinə görə fiziki hazırlıq sağlamlıq üçün vacib olduğu qədər döyüş meydanında həyatda qalmaq üçün də mühüm rol oynayır. "Hər bir hərbçi qarşıya qoyulan döyüş tapşırıqlarını yerinə yetirə bilmək üçün fiziki cəhətdən güclü olmalıdır. Çətin reylefli dağlıq ərazilərdə hərəkət etmək yüksək fiziki güc tələb edir.

**(Ardı 3-cü səhifədə)**



# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda bir sıra görüşlər keçirib



(Əvvəli 1-ci səhifədə)

Görüşdə Azərbaycanla İraq arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi, birbaşa təyyarə reyslərinin təşkili və hökumətlərarası komissiyanın fəaliyyəti ilə əlaqədar məsələlərə toxunulub. Həmçinin Yaxın Şərqdəki vəziyyət müzakirə edilib, regionda sülhün və sabitliyin bərqərar olunmasının vacibliyi bir daha vurğulanıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə görüşüb.

Görüşdə "DP World" şirkətlər qrupunun ölkəmizdəki fəaliyyətinin perspektivləri, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin yaratdığı imkanlar barədə müzakirələr aparılıb. Azərbaycanın regional nəqliyyat qovşağı kimi rolu xüsusi vurğulanıb, mümkün əməkdaşlıq istiqamətləri müzakirə olunub.



* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani ilə görüşüb.

Məsrur Bərzani İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzaninin salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Neçirvan Bərzaniyə çatdırmağı xahiş edib.

Məsrur Bərzani vurğulayıb ki, İraq Kürdüstan Regionunun başçısı Azərbaycana səfərlərindən, o cümlədən COP zamanı ölkəmizə gəlməsindən çox məmnundur.

Söhbət zamanı Azərbaycan ilə İraq Kürdüstan Regionu arasında iqtisadi, ticari, mədəni, humanitar əlaqələrin inkişaf etdirilməsi barədə fikir mübadiləsi aparılıb. Biznes dairələrinin qarşılıqlı səfərlərinin təşkilinin, onların arasında birbaşa təmasların yaradılmasının və biznes-forumların keçirilməsinin vacibliyi qeyd olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə görüşüb.

Almaniya Kansleri təyyarə qəzası ilə əlaqədar araşdırmaların gedişi ilə maraqlanıb.

Görüşdə Azərbaycan Prezidenti ilə Olaf Şoltsun əvvəlki görüşləri və aparılmış müzakirələr məmnunluqla xatırlanıb.

Söhbət zamanı ikitərəfli münasibətlərə, eyni zamanda, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının inkişaf etdirilməsi perspektivlərinə dair fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Kansler Almaniyanın Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin olunması istiqamətində səyləri dəstəklədiyini bildirib.



* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə görüşüb.



Görüşdə Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi qeyd olunub.

İsxak Hersoq ölkəmizə rəsmi səfərini məmnunluqla xatırlayıb.

Söhbət zamanı iqtisadi-ticari sahədə əməkdaşlığın yaxşı səviyyədə olduğu bildirilib, hökumətlərarası birgə komissiyanın işi yüksək qiymətləndirilib.

Azərbaycanlılarla yəhudilər arasında ənənəvi, tarixi dostluq münasibətlərinin mövcud olduğu vurğulanıb, ölkəmizdə digər icmaların nümayəndələri ilə yanaşı, yəhudi icmasının nümayəndələrinin də sülh, əmin-amanlıq və qarşılıqlı anlaşma mühitində yaşamaları üçün hərtərəfli şəraitin yaradıldığı məmnunluqla qeyd edilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda qarşı tərəfin müraciəti əsasında "Carlsberg Group" şirkətinin Müşahidə Şurasının sədri Henrik Poulsen və Baş icraçı direktoru Yakob Aarup-Andersen ilə görüşüb.

Henrik Poulsen rəhbərlik etdiyi şirkətin Azərbaycanda uğurlu fəaliyyətinə toxunaraq, ölkəmizdə mövcud olan investisiya mühitindən razılığını ifadə edib, xüsusilə mülkiyyət hüquqlarının qorunması istiqamətində Azərbaycanın xarici investorlara təqdim etdiyi çərçivəni yüksək qiymətləndirərək, yaradılmış şəraitə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda qarşı tərəfin müraciəti əsasında Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb.

Söhbət zamanı Azərbaycan ilə Ukrayna arasında siyasi, iqtisadi, humanitar sahələrdə əlaqələr, energetika sahəsində əməkdaşlıq və regional təhlükəsizlik məsələləri müzakirə olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda qarşı tərəfin müraciəti əsasında ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri Conni Mur ilə görüşüb.

Söhbət zamanı Azərbaycanda dini azadlıqların təmin olunduğu, müxtəlif xalqların və dinlərin nümayəndələrinin ölkəmizdə tarixən sülh, əmin-amanlıq və harmoniya şəraitində yaşamaları məmnunluqla vurğulanıb.

Görüşdə Azərbaycan-ABŞ əlaqələrinin Tramp dönəmində müsbət perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı bildirib ki, Bayden-Blinken administrasiyası dövründə ABŞ tərəfindən Azərbaycana qarşı qərəzli münasibət göstərilib və bunun da nəticəsində ikitərəfli əlaqələrimiz böhrana sürüklənib. Prezident İlham Əliyev 907-ci düzəlişin yenidən bərpasını məhz elə Bayden-Blinken administrasiyasının nankorluğunun təzahürü kimi dəyərləndirib.

Söhbət zamanı Azərbaycan ilə Tramp administrasiyası arasında gələcək əlaqələr məsələsi müzakirə olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda qarşı tərəfin müraciəti əsasında Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso ilə görüşüb.

Odile Reno-Basso Azərbaycan Prezidentini COP29-un uğurla keçirilməsi münasibətilə təbrik edib, bu tədbirdə əldə olunmuş nəticələri yüksək qiymətləndirdiklərini vurğulayıb.

Ölkəmizdə həyata keçirilməsi nəzərdə tutulan vacib layihələrdən danışan Prezident İlham Əliyev su təsərrüfatı, nəqliyyat, Bakı şəhərinin inkişafı istiqamətlərində icra olunan işləri qeyd edib.



* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda qarşı tərəfin müraciəti əsasında Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə görüşüb.

Andrey Plenkoviç COP29-un uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb.

Prezident İlham Əliyev Xorvatiyanın Baş nazirinin COP29-da iştirakına görə təşəkkürünü bildirib. Söhbət zamanı COP29 çərçivəsində qlobal iqlim gündəliyinin irəli aparılması üçün çox mühüm qərarların qəbul edildiyi vurğulanıb.

Azərbaycan Prezidenti və Xorvatiyanın Baş naziri ölkələrimiz arasında münasibətlərin mövcud səviyyəsini yüksək qiymətləndiriblər, xüsusilə enerji sahəsində olan əməkdaşlığı qeyd ediblər.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Quru Qoşunları komandanının müavini Pakistanın nümayəndə heyəti ilə görüşüb





Yanvarın 23-də Azərbaycan Ordusu Quru Qoşunların komandanının müavini general-mayor İlqar Lətifov ölkəmizdə rəsmi səfərdə olan Pakistan Silahlı Qüvvələrinin Hərbi Əməliyyatlar üzrə Baş Direktoru general-mayor Abdulla Kəşifin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə Azərbaycan-Pakistan arasında hərbi sahədə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, həmçinin hərbi qulluqçuların bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə təcrübə mübadiləsinin aparılması üçün keçirilən birgə təlimlərin intensivliyinin artırılmasının vacibliyi vurğulanıb.

Sonda "Azərbaycan Ordusunun Quru Qoşunları ilə Pakistan Ordusunun Quru Qoşunları arasında Qərargah danışıqlarının keçirilməsinə dair Təlimat" imzalanıb.

# Çin Hərbi Akademiyasının növbəti buraxılış mərasimi keçirilib








Çinin Nankin şəhərində yerləşən Çin Xalq Azadlıq Ordusunun Quru Qoşunları Akademiyasının "Qərargah Zabiti Kursu"nun növbəti buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan Ordusunun 2 zabiti akademiyanı müvəffəqiyyətlə başa vuraraq qırmızı diploma, sertifikata və döş nişanına layiq görülüblər.

Qeyd edək ki, "Qərargah Zabiti Kursu"nda 21 ölkədən 47 xarici hərbi qulluqçu təhsil alıb.

# "Ordunun əsas sütunu sağlam və iradəli əsgərlərdən ibarətdir"



**(Əvvəli 1-ci səhifədə)**

Döyüş zamanı özünü fiziki cəhətdən hazır hiss etməsən, tapşırıqların icrası zamanı çətinlik çəkəcəksən. Sənin çətinlik çəkməyin isə bölmənin döyüş hazırlığına mənfi təsir göstərəcək. Hərbi hissəmizdə günün nizam qaydasına uyğun olaraq təyin olunmuş saatlarda fiziki hazırlıq məşqləri keçirilir. Bu səbəbdən hər bir əsgər fiziki güclü, çevik və dözümlüdür".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş İmanəli Əliyev fiziki hazırlıq məşqlərinin hərbi qulluqçular arasında birliyi artırdığını və onların ruh yüksəkliyini gücləndirdiyini də bildirdi. Çavuş İ.Əliyev qeyd etdi ki, idman təkcə fərdi deyil, kollektiv məsuliyyət hissini də gücləndirir. "Fiziki hazırlıq yalnız əzələ gücü deyil, həm də əzmkarlıq və dözümlülük deməkdir".

Əslən Siyəzən rayonundan olan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mirelmar Həşimov idmanın onun xidmətində mühüm yer tutduğunu bildirdi. "Fiziki hazırlıq məşğələləri mənə əvvəlcə çətin gəlsə də, bir müddət sonra idman həyat tərzimə çevrildi. İndi isə hər gün məşqləri səbirsizliklə gözləyirəm. İdman mənim həm fiziki gücümü artırır, həm də psixoloji olaraq özümə inamımı yüksəldir. Döyüş şəraitində yalnız güclü və iradəli hərbi qulluqçuya malik ordu qalib gələ bilər. Bu səbəbdən idmana çox önəm verirəm".

Əsgər Ramal Quluzadə Bakı şəhərindən hərbi xidmətə çağrılıb və Vətənə olan övladlıq borcunu inamla yerinə yetirir. "Hərbi xidmətdə dostluq və birgə fəaliyyət çox önəmlidir. Biz idman saatlarında bəzən bir-birimizlə rəqabət aparırıq, bəzən isə komanda olaraq birlikdə çalışırıq. Hər iki halda, bu proses bizim birliyimizi gücləndirir. İdmanda uğur əldə etdikcə daha çox məşq etmək istəyirsən. Bu, bir növ döyüş ruhudur. Mənim fikrimcə, hər bir əsgər daim idmanla öz dözümlülüyünü artırmalıdır".

Azərbaycan Ordusunda keçirilən fiziki hazırlıq məşğələləri güclü və dayanıqlı şəxsi heyətin formalaşmasında mühüm rol oynayır.

"N" hərbi hissəsində şəxsi heyətin idman tədbirlərində fəal iştirakı onların fiziki və psixoloji dayanıqlığının artmasına, döyüş hazırlığının güclənməsinə şərait yaradır. Bu yanaşma ilə Azərbaycan Ordusu yalnız müdafiə qüdrətini artırmaqla kifayətlənmir, həm də sağlam və güclü gəncliyin formalaşmasına töhfə verir.

**"Azərbaycan Ordusu"**

# Sıra meydanından qələbəyə gedən yol

**(Əvvəli 1-ci səhifədə)**

Silahla və silahsız icra olunan bütün sıra elementləri hərbi qulluqçularımız tərəfindən peşəkarlıqla yerinə yetirilir. Sıra hazırlığı onların vətənpərvərlik hisslərinin inkişafında da mühüm rol oynayır. Hər bir hərbi qulluqçu sırada dayandığı zaman Vətənin müdafiəsi və müqəddəs vəzifələr üçün burada olduğunu anlayır. Bu, onlara həm də bir məqsəd uğrunda birgə mübarizə aparmağı öyrədir. Hər bir hərbi qulluqçunun Vətənə olan sonsuz sevgisi onu xidmətə daha çox bağlayır".

Əsgər Murad Azadəliyev xidmətə başladığı gündən təcrübəli komandirlərindən hərbi biliklərin sirlərini öyrəndiyini qeyd etdi. "İlk günlər mənim də sıra hazırlığı məşğələlərində çətinliklərim olurdu. Əllərin və ayaqların ardıcıl hərəkəti məni çaşdırırdı. Ancaq komandirlərimizin diqqət və qayğısı, öyrətmə bacarıqları sayəsində qısa müddətdə sıra hazırlığının bütün elementlərini mənimsədim. Əsgər yoldaşlarım ilə birgə addımlamağımız, ayaqlarımızı eyni anda yerə vurmaqla yaranan səs dalğası hər birimizdə qürur hissi yaradır".

Əsgər Elnar Mahmudov xalqımıza qələbə sevincini yaşadan rəşadətli ordumuzun sıralarında xidmət etməsindən qürur duyduğunu bildirdi: "Hərbi xidmətə başlamazdan əvvəl çox həyəcanlı idim. Televiziya kanallarında hərbi verilişləri həvəslə izləyirdim. Xatırlayıram, həmin verilişlərin birində gənc əsgərlərin andiçmə mərasimi nümayiş etdirilirdi. O zaman hərbçilərin sıra meydanında təntənəli keçidini qürur hissi ilə izləmişdim. Hər zaman arzulayırdım ki, mən də əsgər olub həmin hərbi qulluqçular kimi nizamlı addımlamağı bacarım. Məhz bu səbəbdən xidmətə başladığım zaman andiçmə mərasimimizi səbirsizliklə gözləyirdim. Komandirlərimiz sıra hazırlığının incəliklərini bizə öyrətdilər. Qısa zaman ərzində əsgər yoldaşlarımla bərabər lazımi elementləri icra edə bildik. Bu gün də öz üzərimizdə çalışır, hərbin bütün sirlərinə dərindən yiyələnməyə səy göstəririk. Mən və əsgər yoldaşlarım yalnız sıra hazırlığımızı deyil, döyüş, atış və fiziki hazırlıqlarımızı da inkişaf etdirmişik. Xalqımıza layiqli əsgər, vətəndaş olmaq üçün daim öz üzərimizdə çalışırıq".

Digər əsgərlər də söhbət zamanı sıra hazırlığının əhəmiyyətini dərk etdiklərini, verilən tapşırıqları cəld və səhvsiz yerinə yetirmək üçün çox çalışdıqlarını ifadə etdilər. Hər bir əsgərin öz vəzifəsinin öhdəsindən layiqincə gəldiyinin, Vətənə sədaqətlə xidmət etdiyinin canlı şahidi olduq.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**



# İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun 115 illiyi qeyd olunub







*Yanvarın 22-də Müdafiə Nazirliyinin təşkilatçılığı ilə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 115 illiyinə həsr olunmuş tədbir keçirilib.*

Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusunun, ictimaiyyətin nümayəndələrinin və generalın ailə üzvlərinin iştirak etdiyi mərasimdə əvvəlcə fəxri qarovulun müşayiəti ilə məzarüstü abidə önünə Müdafiə Nazirliyi və Aslanovlar ailəsi adından əklillər qoyulub, güllər düzülüb. Ümummilli Lider Heydər Əliyevin və xalqımızın igid oğlunun timsalında Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi ehtiramla yad edilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə çıxış edənlər Həzi Aslanovun xalqımızın yetirdiyi ən böyük sərkərdələrdən biri olduğunu vurğulayaraq, İkinci Dünya müharibəsində həmvətənlərimizin göstərdiyi hünər və rəşadətdən danışıblar.

Bildirilib ki, adı Azərbaycanın hərb tarixinə qızıl hərflərlə həkk olunmuş sərkərdənin keçdiyi qəhrəmanlıqla dolu döyüş yolu hər bir vətəndaşımız üçün nümunədir və onun öyrənilməsinin gənclərimizin vətənpərvər ruhda tərbiyə olunmasında xüsusi rolu vardır.

Generalın ailə üzvləri göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, mərasimin təşkilinə görə isə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# "Həzi Aslanov kimi qəhrəmanların hünəri xalqın qəhrəmanlıq salnaməsinə əbədi yazılıb"



*Tarixin ən qanlı və dramatik müharibələrindən biri olan İkinci Dünya müharibəsi, şübhəsiz ki, insanlığın yaddaşında silinməz izlər buraxdı. Bu müharibə həm də bir çox böyük qəhrəmanın adını ucaltdı. Onlardan biri də Həzi Aslanovdur. Həzi Aslanovun adı yalnız sovet ordusunun deyil, bütün dünyanın hərb tarixinə əbədi həkk olunmuşdur. Onun döyüşçüləri ilə birgə göstərdiyi şücaət və bacarıq bir çoxlarının gözündə yenilməzliyi simvolizə edirdi.*

Tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş yeganə azərbaycanlıdır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev əfsanəvi generalın xidmətlərini yüksək qiymətləndirərək demişdi: "Həzi Aslanov adına hərbi məktəbin kursantlarına üzümü tutub onlara bu qeyri-adi insana bənzəmələrini arzu edirəm. İstəyirəm ki, siz də hər şeydə: həyatda yüksəlməkdə də, xalqı və Vətəni sevməkdə də, yeri gələrsə, haqq işi uğrunda canından keçməyi bacarmaqda da Həzi Aslanova oxşayasınız. Həzi Aslanov kimi qəhrəmanların hünəri xalqın qəhrəmanlıq salnaməsinə əbədi yazılıb".

Həzi Aslanov 1910-cu il yanvarın 22-də Lənkəran şəhərində dünyaya göz açıb. Atası Əhəd kişi Lənkəran kərpic zavodunda fəhlə işləyib. Ailə çox çətinliklə dolanıb. Həzi 13 yaşında ikən atasını itirir. Onun yerinə zavodda işləməyə başlayır və ailənin ağır yükünü çiyinlərində daşımalı olur.

Həzi Aslanov uşaq yaşlarından hərbçi olmaq arzusu ilə yaşayıb. O, 1924-cü ildə komsomol zəmanəti ilə Zaqafqaziya hərbi hazırlıq məktəbinə göndərilir. Nümunəvi kursant olmaqla yanaşı, həm də məktəbdə bölüyün divar qəzetinin redaktoru olur.

Suvorov məktəbləri tipində olan bu məktəb ordu üçün gənc komandirlər hazırlayırdı. H.Aslanov 1929-cu ildə məktəbi bitirdikdən sonra Leninqrad süvari məktəbinə daxil olur. İki ildən sonra təhsilini uğurla başa vurub Kotovski adına 3-cü Bessarabiya süvari diviziyasının 15-ci alayına bölük komandiri təyin edilir. Ordu həyatına süvari kimi başlayan H.Aslanov sonralar at belindən düşüb tank sükanı arxasına keçir. Rəhbərlik etdiyi tank bölüyü bütün təlim və məşqlərdə fərqlənirdi. Gənc komandir 1939-cu ilin fevralında "kapitan", bir il sonra "mayor" rütbəsinə layiq görülür.

Müharibədən əvvəlki 8 il ərzində Həzi Aslanov bölük komandiri, tank bölüyünün komandiri, əlahiddə tank taboru məktəbinin rəisi, tabor komandirinin tədris atıcılıq hissə üzrə köməkçisi və digər məsul vəzifələrdə çalışıb. Gənc zabit harada xidmət etməsindən asılı olmayaraq göstərilən etimadı layiqincə doğruldur, yüksək peşəkarlıq nümayiş etdirirdi. İctimai fəallığı nəzərə alınaraq, 1937-ci ildə Ukraynanın Obruç şəhər sovetinin deputatı seçilib.



Müharibə başlayanda Həzi Aslanov Ukraynanın Lvov vilayətinin Zloçev şəhərində xidmət edirdi. O, müharibənin ilk günlərini xatırlayaraq yazırdı: "1941-ci il iyunun 23-nə keçən gecə alman diviziyası basqın etdi. Bomba tökməyə başladı. Dan yeri ağaranda biz qeyri-bərabər döyüşə girdik". Həmişə qələbəyə alışmış hitlerçilər H.Aslanovun və onun tankçılarının qəhrəmancasına göstərdikləri müqavimətə rast gəlirlər. Düşmən geri çəkilməyə məcbur olur.

Müharibə zamanı zabitlərin ailələrini vaqonlara mindirib, arxa cəbhəyə göndərirdilər. Həzinin həyat yoldaşı Xavər xanım, oğulları Tofiq və Arif də Lvovda onunla birlikdə idilər. Hamı kimi onlar da ümumi vaqonla Bakıya yola salınıblar.

Həzi Aslanov 1942-ci ilin əvvəlində "polkovnik-leytenant" rütbəsi alaraq Moskvaya qızıl ordunun zirehli tank və mexanikləşdirilmiş qoşunlar komandanlığının sərəncamına göndərilir. Moskvanın müdafiəsi uğrunda döyüşlərdə "Qırmızı Ulduz" ordeni ilə təltif olunur.

1942-ci ilin iyulunda Stalinqrad cəbhəsində 55-ci əlahiddə tank birliyinin komandiri kimi döyüşlərdə igidlik, şücaət göstərdi. Almanların 300 minlik ordusunu mühasirəyə aldılar. Mühasirədən çıxmaq üçün Hitler Manşteynin tank ordusunu köməyə göndərdi. Həzi Aslanovun rəhbərliyi ilə düşünülmüş çevik əməliyyat nəticəsində düşmənə ağır zərbələr endirildi. Aslanovun tankçıları döyüşə-döyüşə 40 kilometrdən artıq yol gedib Stalinqrad-Salsk dəmir yolunu tutdular. Düşməni əsas magistral yoldan məhrum etməklə xeyli canlı qüvvəsini və texnikasını, Kotelnikovo yaxınlığında isə 30 əks-hücum əməliyyatını dəf edib, bir tabor piyada qoşununu, 30 tankını, 50 avtomobilini məhv etdilər. Komandanlığın döyüş tapşırıqlarını nümunəvi yerinə yetirdiyinə, xüsusi rəşadət və qəhrəmanlıq göstərdiyinə, tabeliyində olan hissələrə bacarıq və mərdliklə rəhbərlik etdiyinə görə polkovnik-leytenant Həzi Əhəd oğlu Aslanov 1942-ci il dekabrın 22-də "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görüldü. Rəhbərlik etdiyi alaya isə qvardiya adı verildi.

1944-cü ilin yayında general-mayor Həzi Aslanov cəbhədə xüsusi igidlik, şücaət göstərdiyinə görə ikinci dəfə "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülsə də, SSRİ-nin hərbi rəhbərliyində təmsil olunan erməni generalı İ.Baqramyan buna maneçilik törədir. Ölümündən 47 il sonra haqq-ədalət qalib gəlir və Həzi Aslanova ikinci dəfə "Sovet İttifaqı Qəhrəmanı" adı verilir.

Ulu Öndər Heydər Əliyevin irsinə sadiq qalan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Böyük Vətən müharibəsi veteranlarına, onların ailələrinə xüsusi diqqət və qayğı göstərir. Bu diqqət yalnız fərdi yardımlarla məhdudlaşmır, eyni zamanda, xalqımızın milli mənəviyyatına olan sevginin göstəricisi kimi çıxış edir. Hər il 9 May - Qələbə Günü münasibətilə keçirilən anım mərasimləri, Həzi Aslanovun xatirəsinə ucaldılmış abidə önündə müharibə iştirakçıları və veteranlarla görüşlər bu diqqətin bariz nümunəsidir. Tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun şərəfli döyüş yolu tariximizin parlaq səhifəsidir. İkinci Dünya müharibəsinin ən çətin dövrlərində göstərdiyi qəhrəmanlıq və liderlik sayəsində onun adı beynəlxalq miqyasda tanınıb. Döyüş meydanında qətiyyətli qərarları və taktiki bacarığı ilə Həzi Aslanov yalnız düşməni məğlub etməklə kifayətlənməyib, həm də Qələbə yolunda silinməz izlər qoyub. Bu gün də onun döyüş strategiyaları hərbi elm sahəsində araşdırılır və tədris olunur.

Həzi Aslanovun adı Azərbaycan xalqı üçün sadəcə bir qəhrəman deyil, həm də Vətənə bağlılığın, fədakarlığın və milli iradənin təcəssümüdür. Onun xatirəsi bu gün də hər bir azərbaycanlının qəlbində yaşayır.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

*Milli Qəhrəmanlarımız*

# Ömrü örnək olan oğullar

Şövqiyar Abdullayev xalqımızın ömrü dastanlara dönən qəhrəman övladlarındandır. Vətən, torpaq uğrunda canını qurban verən, erməni yaraqlılarına qarşı igidliklə döyüşən Şövqiyarın keçdiyi şərəfli həyat yolu ilə tanış olarkən insan qürur duyur.

O, 5 aprel 1969-cu ildə Göyçə mahalı Basarkeçər rayonunun Nərimanlı kəndində müəllim ailəsində dünyaya göz açmışdı. 1986-cı ildə doğma kəndi Nərimanlıda orta məktəbi əla qiymətlərlə bitirib elə həmin il də Azərbaycan Dövlət Politexnik İnstitutuna (indiki Azərbaycan Texniki Universiteti) daxil olmuşdu Şövqiyar. Birinci kursu başa vurduqdan sonra ordu sıralarına çağırılmışdı.

Şövqiyar Abdullayev 1989-cu ildə Monqolustanda hərbi xidmətini tank qoşunları tərkibində başa vuraraq Bakıya qayıdır. Bu, o vaxt idi ki, artıq Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə başlamışdı... Ailəsi, doğmaları, bütün kənd, rayon camaatı ata-babalarının, əcdadlarının minilliklərlə yaşadıqları tarixi torpaqlarından mənfur, qədirbilməz ermənilər tərəfindən didərgin salınmışdılar. O günlər xalqımız üçün ağır, faciəli günlər idi...



Qarabağdan, eləcə də Qərbi Azərbaycandan yüzminlərlə soydaşımızın ata-baba yurdlarından qovulması Şövqiyarı təhsilini yarımçıq qoyub, odalovun içərisinə atılmağa məcbur edir. O, 1992-ci ilin əvvəllərində könüllü olaraq yenicə formalaşmaqda olan ordu sıralarına yazılır. Şövqiyarı Ağdamda təşkil edilmiş tank hərbi hissəsinə göndərirlər. Burada ona tank komandiri kimi məsuliyyətli bir vəzifə tapşırılır. Göyçənin igid oğlu hər an döyüşə girməyə can atır, düşməndən qisas almağa tələsir. Çox keçmir ki, sorağı cəbhənin odlu-alovlu nöqtələrindən gəlməyə başlayır.

1992-ci ilin baharı idi. Ağdamın Papravənd, Pircamal, Aranzəmin və digər kəndləri uğrunda qanlı döyüşlər başlamışdı. Məhz Şövqiyarın komandiri olduğu tankı da bu qaynar nöqtəyə göndərirlər.

Düşmənin texnika və canlı qüvvəsinin xeyli üstün olmasına baxmayaraq, o, bir an da olsun ruhdan düşmür, döyüş yoldaşlarını qələbəyə səsləyirdi. Çox keçmir ki, kəndlər birbirinin ardınca düşməndən azad olunur.

Avqustun 23-ü... Şövqiyar Abdullayevin tankı Abdal-Gülablı kimi strateji cəhətdən çox əlverişli bir yeri qoruyurdu. Sonra o, döyüşlərini Ağdərə rayonunun müdafiəsində davam etdirir. Sərsəng su anbarı yaxınlığındakı Drambon (indiki Heyvalı) kəndi uğrunda gedən döyüşlərdə Şövqiyarın tankı bir neçə dəfə vurulur.

Hər iki ayağından yaralanan tank komandirini Ağdam hərbi hospitalına çatdırırlar. Döyüş yoldaşlarının yanına tələsən Şövqiyar "özümü yaxşı hiss edirəm" deyərək yenidən cəbhəyə qayıdır.

1992-ci il avqustun 27-də o, ağır bir döyüşə girir. Düşmən yenə də amansız idi. Güllələr dolu kimi yağırdı. Döyüşçülərimiz 4 tərəfdən mühasirədə qalmışdı. Şövqiyar yoldaşlarının əsir düşməməsi üçün özünü irəli verir, avtomatı sinəsinə sıxıb, düşmənin diqqətini özünə yönəldir. Qəfil açılan güllələrdən biri onu ağır yaralayır. Cəsur tankçı, qəhrəman döyüşçü Şövqiyar Abdullayev dostlarının qolları arasında əbədiyyətə qovuşur. Subay idi. Birinci Şəhidlər xiyabanında dəfn olunub. Hər il avqustun 28-də döyüş yoldaşları, komandirləri ailə üzvləri ilə birlikdə qəhrəman tankçının məzarını dərin ehtiramla yad edir, əziz xatirəsini anır, ruhuna dualar oxuyurlar.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı Fərmanı ilə Abdullayev Şövqiyar Cəmil oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Bakı şəhərindəki küçələrdən biri onun adını daşıyır.

Rahat uyu, xalqımızın qeyrətli, qəhrəman oğlu! Bu gün illərlə düşmən əsirliyində qalmış ana Vətənimizin torpaqları azadlığına qovuşub. Müzəffər ordumuz tarixi ədaləti təmin edib.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Vətən müharibəsi şəhidi leytenant Elvin Şükürlünün xatirəsi anılıb







Yanvarın 22-də İkinci Fəxri xiyabanda Vətən müharibəsi şəhidi leytenant Elvin Şükürlünün anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, anım mərasimində Müdafiə Nazirliyinin, Xətai rayon İcra Hakimiyyətinin nümayəndələri, şəhid ailələri, müharibə veteranları, döyüşlərdə yaralananlar, məktəblilər iştirak ediblər. Əvvəlcə şəhidin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ruhuna dualar oxunub.

Tədbirdə çıxış edənlər Vətən müharibəsi zamanı 44 gün ərzində Azərbaycan Ordusunun keçdiyi Zəfər yolundan bəhs edib, Elvin Şükürlü kimi qəhrəman oğulların cəsarəti və misilsiz şücaəti sayəsində ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edildiyini diqqətə çatdırıblar. Xalqımızın şəhidləri heç zaman unutmayacağı, onların şərəfli döyüş və həyat yolunu nəsillərdən-nəsillərə örnək kimi çatdıracağı vurğulanıb.

Sonra 221 saylı məktəbdə şəhidin adını daşıyan sinfin şagirdləri şeirlər səsləndiriblər.

Şəhidin qardaşı kapitan Elnur Şükürlü AZƏRTAC-a müsahibəsində deyib: "Elvinlə bir yerdə döyüşmüşük. Uşaqlıqdan şəhid olduğu dövrə qədər, 23 yaşına kimi vaxtımızı bir yerdə keçirmişik. O, şəhidlik kimi uca zirvəni fəth etməzdən əvvəl də yüksək insani keyfiyyətləri və düşüncələri ilə fərqlənirdi. Hər zaman ön cəbhədə xidmət etməyə can atırdı. İkimiz də ön cəbhədə Vətən keşiyində dururduq. Hər dəfə atəşkəs pozulanda və ya hansısa təxribata qarşılıq vermək tapşırığı alanda bir-birimizlə əlaqə saxlayır və valideynlərimizi bir-birimizə tapşırırdıq. Ən son 2020-ci il sentyabrın 26-da əlaqə saxladıq və hər zamankı kimi halallaşdıq. Elvin sentyabrın 28-də Kəlbəcər-Murovdağ istiqamətində Üçtəpələr postunun azad edilməsində xüsusi şücaət göstərib. Təəssüf ki, elə həmin istiqamətdə də şəhid olub. Dörd ay itkin şəhid kimi axtarışda oldu. Biz onu 2021-ci il yanvarın 22-də uğrunda canından keçdiyi Vətən torpağına tapşıra bildik. Qardaşımla fəxr edirəm. Bu gün onun torpağa tapşırılmasından dörd il ötdü. Vətən sağ olsun. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlıqları bir ömür yaşayacaq, qanları ilə yazdıqları tarix heç zaman unudulmayacaq".

Döyüş yoldaşı, ehtiyatda olan hərbi qulluqçu, Vətən müharibəsi veteranı Cəlal Zeynalov Elvin Şükürlünün çox cəsarətli bir komandir olduğunu bildirib: "Elvin komandir kimi öz əsgərlərinə doğması kimi yanaşırdı. Öz tabeliyində olan əsgərlərin, hərbi qulluqçuların qayğısına qalırdı. Onun atası Azad Şükürlü Birinci Qarabağ müharibəsi iştirakçısıdır. Öz övladlarını vətənpərvərlik ruhunda tərbiyə edib və qəhrəman kimi yetişdirib".

*Nümunəvi xidmət*

# Əsgəri sevgi

Hərbi hissədə taqım komandiri əsgərlərdən birini nümunəvi əsgər kimi təqdim etdi. Nümunəvi əsgər ifadəsinə aydınlıq gətirilməsini xahiş etdim: "Məsuliyyətlidir, tapşırıqları vaxtında yerinə yetirir, qarşılıqlı münasibətlərdə son dərəcə diqqətlidir, əsgər yoldaşları ilə xoş münasibəti var, günün nizam qaydasına ciddi əməl edir, bir də öyrədilənləri həvəslə öyrənir, təlimlərdə fərqlənir...". Nümunəvi xidməti şərtləndirən xarakteri başqa zabitlər də qeyd etmişdilər...

Taqım komandirinin nümunəvi əsgər kimi təqdim etdiyi Bəhmən Cəbrayılovla söhbətləşdik. Öyrəndim ki, orta məktəbdə riyaziyyat və ədəbiyyat fənlərinə böyük marağı olub. "Riyaziyyatı dəqiqliyinə görə, bütün elmlərə açar olduğuna görə sevirdim, ədəbiyyatı ana dilimizi yaşatdığına görə, düşüncələrimizə əvəzsiz əsərlər bəxş etdiyinə görə", - əsgər Bəhmən Cəbrayılov belə dedi.

Orta təhsilini başa vuran Bəhmən hərbi xidmətə yollanıb. Hərbi hazırlıq müəllimlərinin dediyi bir kəlam bütün sinif yoldaşları kimi, Bəhmən Cəbrayılovun da düşüncələrinə hopubmuş: "Yaxşı mütəxəssis olmaq qabiliyyətdir, yaxşı vətəndaş olmaq isə borcdur...". O da Vətənə borcunu sədaqətlə yerinə yetirməyə gəlib...

Hərbi xidmət - yeni mühit, yeni nizam, yeni tələblər onun da xarakterində incə dəyişikliklər yaradıb. Sırada hərəkətləri o da öyrənib, nizamnamələrin tələblərini mənimsəyib, o da hərbi bilikləri öyrənə-öyrənə əsgərləşib. "Əsgər yoldaşlarımız bizim də hərbi bilikləri və vərdişləri mükəmməl mənimsəməyimizə köməklərini əsirgəmirdilər. İlk vaxtlar bir qədər çətinliklərimiz olurdu. Öyrəndikcə, hərəkətlərin çevikliyini mənimsədikcə, bu çətinliklər sovuşurdu. İndi heç bir çətinliyimiz yoxdur...", - əsgər Bəhmən Cəbrayılovun səsində əminlik vardı.

Komandiri onun Hərbi Nizamnamələrin tələblərinə uy-



ğun xidmət etdiyini, verilən tapşırıqları vaxtında yerinə yetirdiyini bildirdi.

Bəhmən Cəbrayılov ünsiyyətcil əsgərdir. Asudə vaxtlarda əsgər yoldaşları ilə İkinci Qarabağ müharibəsinin döyüşlərindən, qəhrəmanlıqlardan, tarixi Zəfərdən, Azərbaycanın ərazi bütövlüyünün tam bərpa edilməsindən, Bakıda açılmış Zəfər Parkından, ... danışırlar. Əsgər qüruru əsgər dostluğunun yolgöstərəni olur. Nəfəs-nəfəsə keçən xidmət günləri onları mətinləşdirir. Nümunəvi xidmət edən əsgər Bəhmən Cəbrayılov da belə əsgərdir...

Hərbi xidmət əsgərin yaxşı vətəndaş kimi formalaşmasında mühüm bir mərhələ olur. "Hərbi xidmətdən sonra mülki həyatda da əsgəri məsuliyyətlə işləyəcəyəm. Nümunəvi əsgər hərbi xidmətdən tərxis edildikdən sonra nümunəvi vətəndaş olmağa borcludur", - Bəhmən belə dedi. Əsgər yoldaşlarının baxışlarında bir əsgəri sevgi gördüm...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Hərb tariximizdən*

# Hərb tarixi hər bir dövlətin qüdrət möhürüdür

Hərb tarixi insanların müharibə, silahlı qarşıdurma, sərkərdə və uğurlu strategiyalarla bağlı keçmişini öyrənən sahədir. Adıçəkilən sahə qarşıdurma və toqquşmaların başladığı və bitdiyi tarix əsnasında baş verən hadisələrin gedişatı və nəticələrini analiz edir, sərkərdələrin döyüş bacarığını, strateq məharətlərini öyrədir və hərb tarixinin geniş aspektlərini izah edir. Hərb tarixinin bir neçə aspektləri vardır. Hərbi lider və komandanlar hərbi strategiya və taktika, hərbi texnologiya.

**Hərbi lider və komandanlar:** Hərbi liderlər tarixdə savaşların gedişatını dəyişdirmə və dövlətlərin qüdrətinə müsbət təsir etməyi bacarmış şəxsiyyətlərdir. Onların dövləti idarə etməsi ilə yanaşı, döyüşü idarəetmə bacarıqları da xüsusi əhəmiyyətli keyfiyyətlərdən sayılır. Antik dövrdə Makedoniyalı İsgəndər (Böyük İsgəndər) 33 illik qısa dövrü əhatə edən ömrü müddətində Yunanıstandan Misirə, Misirdən Hindistana qədər olan geniş əraziləri fəth etmiş və öz əlində saxlamağı bacarmış sərkərdələrdəndir ki, onun strateqlik məharətləri bu gün də öyrənilir. Böyük İsgəndər kiçik yaşlarında taxta çıxmağı bacarsa da, öz ağlı, sərkərdəlik bacarığı ilə dünya tarixində silinməz izlər qoymağı bacardı.

Qay Yuli Sezar da dünya tarixinin ən tanınmış hərbi komandanı, dövlət xadimi və siyasi liderlərindən biridir. Yuli Sezarın öz dövründə imperiyanın daxilində yatırtdığı qiyamlar, rəhbərlik etdiyi müharibələr zamanı qüvvələr arasında olan balansın o qədər vacib anlayış olmadığını, əsas faktorun düzgün strategiya və rəhbərlik olduğunu dünyaya sübut etdi. Onun Qall tayfalarını fəth etməsi ilə Alp, Pireney və Peyn arasında geniş ərazi Roma hakimiyyəti altına keçmişdi. Alman tayfalarının üzərindəki qələbədən sonra İngiltərəyə də hücum edən Sezarın qüvvələri burada da uğur qazanmağı bacardı. Sezar hakimiyyətə gəldikdən sonra ona qarşı mübarizə aparan qüvvələri də dəfələrlə sarsıdıcı məğlubiyyətə uğratmış, apardığı dövlət və hərbi əhəmiyyətli islahatlarla xalqın rəğbətini qazanmış, Roma tarixində dərin iz buraxmağı bacarmış lider idi.

Əmir Teymur türk dünyasının orta əsrlərdə böyük imperiya qurmuş ən böyük fatehi və hərbi liderlərindəndir. Əmir Teymurun hərbçi ailəsində anadan olması onun gələcək həyatına ciddi təsir göstərən və həyat yolunu təsdiq edən səbəblərdən biri oldu. Tarixdə özünəməxsus hərbi strategiyası, geniş ərazini əhatə edən fəthləri və dövlət idarəçiliyi ilə yadda qalan Əmir Teymur Teymurilər imperiyasını qurmaqla Orta Asiyada, ələlxüsus, hazırkı İran, Əfqanıstan, Hindistan, Türkiyə, o cümlədən Qafqaz regionu ərazilərinə qədər öz adını yaymağı bacarmışdır. Tarixdə qəddar hökmdar olaraq tanınsa da, uğurlu hərbi strategiyası və idarəçilik keyfiyyətləri ilə böyük hörmət sahibi olmuşdur. Rəhbərlik etdiyi orduda müxtəlif xalq və millətlərin olmasına baxmayaraq, nizami ordu qurmağı bacarmış Əmir Teymur tabeliyindəki əsgərləri döyüşə həm mənəvi, həm də fiziki cəhətdən hazırlamaqda əsl peşəkar idi.

Çingiz xan dünya tarixinin ən güclü və təsirli liderlərindən biri olaraq qitələrarası imperiya qurmağı bacarmış hərbi komandirlərdən biridir. Çingiz xan Asiyadan Avropaya qədər uzanan imperatorluğun qurucusu və ilk böyük xanı olmuşdur. Gənc yaşlarından liderlik vəzifəsini yerinə yetirmək kimi vacib bir işi görməyi bacaran Çingiz xan bir-birindən ayrı yaşayan, amma qan bağlılığı olan monqol tayfalarını birləşdirərək nizami ordu və dövlət qurmağı da yüksək səviyyədə bacarmışdır. Qafqaz, İran və Cənubi Rusiyada yerləşən dövlətləri məğlub edərək, müharibə meydanında məğlubedilməz olan Monqol İmperiyasının döyüşçüləri qısa vaxt ərzində təşkilatlanma, süvari oxatan qüvvələr ilə düşməni pusquya salma, taktiki geri çəkilmə və yenidən hücuma keçmə kimi özünəməxsus taktikaları uğurla icra etməyi bacarmış və hərb tarixində öz silinməz izini qoymuşdur.

Azərbaycan hərb tarixinin izləri son iki minillik müddətdən də çox zamanı əhatə edir. İndiki Azərbaycanın yerləşdiyi geostrateji əhəmiyyətə malik və zəngin resurslara sahib olan Qafqaz regionu Avropa ilə Asiyanı birləşdirən mühüm nəqliyyat dəhlizi olması ilə diqqət çəkirdi. Qədim dövrdən Çin və Hindistan kimi böyük tarixə sahib olan hegemon güclər avropalı tacirlər və səyyahlar üçün əlçatan edən İpək yolu layihəsinin indiki Azərbaycan ərazisini əhatə etdiyi üçün yadelli və işğalçılar tərəfindən zaman-zaman hücumlara məruz qalırdı. Çətin ərazidə yerləşməsinə və tez-tez hücumlara məruz qalmasına baxmayaraq, Azərbaycan xalqı öz mövcudluğunu qoruyub saxlaya, milli-mənliyini və mədəniyyətini dərk edərək gələcək nəsillərə uğurla ötürə bilmişdir ki, adət-ənənələrimiz illərin çətinliklərinə sinə gərərək yaşadılmaqla bu gün təkcə regionun deyil, dünyanın xüsusi tarixə malik mərkəzlərindən biri olaraq seçilir.

Şah İsmayıl Xətai Səfəvi İmperatorluğunun qurucusu və ilk şahı olaraq indiki Azərbaycan, Orta Asiya və Yaxın Şərq ərazilərini özünə ram etməyi bacarmış dahi sərkərdələrdən biri idi. O, sadəcə sərkərdə deyil, mədəniyyət və dövlət xadimi olaraq da ad qazanmışdı. Hələ erkən yaşlarında Şirvan və Ərdəbil ərazilərini fəth edərək taxta çıxmış və zaman keçdikcə daha geniş ərazini özünə birləşdirmişdi. Səfəvi hərəkatının ciddi təsir etdiyi İran ərazisində Şah İsmayıl güclü fiqur olaraq dini, siyasi və hərbi nüfuz qazanmışdı. Şah İsmayıl Xətai Azərbaycanın hərb tarixində öz adını qızıl hərflərlə yazmışdır.

Babək Xürrəmilərə rəhbərlik edən sərkərdə olaraq Abbasilər xilafətinə qarşı 20 ildən artıq azadlıq mübarizəsi aparmışdı. Hazırkı Azərbaycan və İran ərazilərinə tamah salan xilafət ordusunun məkrli niyyətlərinin qarşısını almaq üçün ciddi müqavimət göstərmişdi. Bəzz qalasında ciddi müdafiə strategiyasını qurmaqla yanaşı, hücum və müasir dillə desək, partizan savaşını dünya hərb tarixinə özünəxas tərzdə yenilik olaraq gətirmişdi. Dağlıq ərazilərdə sürətli hücum və geri çəkilib yenidən hücum taktikasından istifadə edən Babək öz ordusundan qat-qat ağır silahlanmış və dəfələrlə çox heyətlə komplektləşmiş xilafət ordusuna ciddi zərbələr vurmuşdu. Xilafətin Bəzz qalasına dəfələrlə hücum etməsinə baxmayaraq, qala müvəffəqiyyətlə müdafiə olunmuş, düşmənin amansız hücumları uğurla dəf edilmişdi. Sonda xəyanət və satqınlıq nəticəsində Bəzz qalası düşmən tərəfindən zəbt edilmiş, Babək isə əsir götürülmüşdü. Ağır işgəncə, əzab-əziyyətlərə baxmayaraq, öz məğrur duruşunu itirməyən Babək edam edilsə də, xalqımızın yaddaşında vətənpərvər şəxsiyyət və güclü komandan olaraq qalmağı bacardı. Babəkin apardığı mübarizə həm də böyük azadlıq uğrunda mübarizə simvolu olaraq da tarixləşdi.

Cavad xanın adı Gəncə xanlığının sonuncu xanı olaraq, tariximizə həm güclü diplomat, həm də hərbi lider olaraq həkk olunmuşdu. Həmin dövrdə rus imperiyasının Qafqaz üzrə general-qubernatoru olan Pavel Dmitriyeviç Sisianov regionumuzda rus təsirini gücləndirmək və Azərbaycan xanlıqlarını imperiyaya tabe etmək kimi niyyətlərin icraçısı idi. Həmin dövrdə Azərbaycan üçün ciddi təhlükələrdən biri də məhz cənubda güclənən fars qüvvələri idi. XIX əsrin əvvəllərində Sisianov tərəfindən Cavad xana ultimatum göndərildi ki, Gəncə xanlığı müqavimət göstərmədən rus imperiyasının hakimiyyəti altına keçsin. Cavad xan bu istəyi qəti şəkildə rədd edərək Gəncə qalasının müdafiəsi ilə bağlı göstəriş verdi. Gəncənin müdafiəsi həm ordu, həm də yerli əhali tərəfindən təşkil olundu. Ciddi kəmiyyət və hərbi texnologiya fərqinə baxmayaraq, Gəncə qalası bir aydan çox müdafiə olundu. Cavad xan da son nəfəsinə qədər mübarizə apardı və qəhrəmancasına şəhid oldu. Onun ölümü Gəncə xanlığının rus hakimiyyəti altına keçməsi ilə nəticələndi. Cavad xanın yadellilərə qarşı apardığı mübarizəsi Azərbaycanın milli-azadlıq hərəkatında unudulmaz mərhələlərdən biridir.

Hərb tariximizə nəzər salsaq, görərik ki, doğma yurdumuzun minlərlə qəhrəman və sərkərdə övladları olub. Atabəy Şəmsəddin Eldəniz, Uzun Həsən, Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski, Mehdi Hüseynzadə, Həzi Aslanov və yüzlərlə sələfinin yolunu bu gün uğurla davam etdirən gənclərimiz gələcəyimizin memarı olaraq hərb tariximizin səhifələrini daha da zənginləşdirirlər.

**Hərbi strategiya və taktika:** Əvvəlcə strategiya və taktika arasında fərqi anlamağa çalışaq. Hərbi strategiya daha geniş anlayış olaraq müharibə və hərbi əməliyyatlar zamanı istifadə olunan ümumi plan, prekonflikt və postkonflikt dövrdə hərbi sahədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün təsdiq olunmuş proqramdır. Hərbi strategiyada məqsəd müəyyənləşdirmə, ölkənin milli maraqlarını qorumaqdan, milli təhlükəsizliyini təmin etməkdən və s. ibarətdir. Hərbi strategiyanın mühüm hissəsini resurslar təşkil edir ki, bunlar da insan amili, texnoloji yeniliklər, iqtisadi potensial və s. aspektlərdən ibarətdir. Hərbi strategiyada təhlükə analizi, perspektiv planlar da xüsusi əhəmiyyət daşıyır ki, təhlükə analizi - potensial düşmənin güclü və zəif tərəflərini öyrətməklə yanaşı, potensial təhlükələrin də öyrənilməsini təmin edir. Hərbi taktika isə döyüş əsnasında istifadə olunan üsul və manevrlər toplusundan ibarətdir. Taktika strategiya ilə nisbətdə daha kiçikmiqyaslı fəaliyyətlərdə tətbiq olunur. Qüvvələrin tərkibindəki qoşun növlərinin, qoşunların tərkibindəki bölmələrin, bölmələrin tərkibindəki şəxsi heyətin ərazidə yerləşdirilməsi, hərəkət istiqamətləri, hücum və müdafiə üsullarının koordinasiyalaşmış şəkildə təşkili hərbi taktikanın əsas qollarındandır.

**Hərbi texnologiya:** Hərbi texnologiya dövlətin özünümüdafiə və döyüşaparma qabiliyyəti fəaliyyətlərini yerinə yetirmək, dövlətin təhlükəsizliyini təmin etmək, ehtiyaclarını qarşılamaq üçün istifadə edilən hərbi vasitə və sistemləri əhatə edir. Bu texnologiyalar ordunun, silahlı qüvvələr və güc strukturlarının qüdrətini yüksəltmək, strateji üstünlük əldə etmək, təhdid və təhlükələrə qarşı tədbirləri həyata keçirmək üçündür. Müasir dövrdə hərbi texnologiyalar ağır və yüngül (atıcı və ağır silah, raket, dron, zirehli texnika və s.) olmaqla silah sistemləri (quru, su və hava), kibertəhlükəsizlik vasitələri, hərbi tibb, kütləvi qırğın silahları və s. olmaqla təsnifləşdirilir. Azərbaycan Ordusu da müasir dövrün hərbi texnologiyalarının zəruri qismi ilə təchiz olunub. Ordumuz regionun ən güclü və müasir ordusu olaraq, 1990-cı ildən bu günümüzə qədər böyük inkişaf yolu keçib. Belə ki, ordumuz modernləşdirilmiş atıcı silahlarla, artilleriya sistemləri, ağır hərbi texnikalar (tank, zirehli döyüş maşınları və s.), HHQ-lərimiz arsenalındakı aviasiya vasitələri, müasir PUA-lar və hava hücumundan müdafiə sistemləri ilə təchiz olunmaqla yanaşı, hərbi dəniz donanmamız da Xəzərin Azərbaycana aid sektorunda öz vəzifəsini uğurla icra edir. Azərbaycan dünyanın aparıcı ordularına malik ölkələri ilə qurduğu əməkdaşlıqlar nəticəsində mühüm layihələrə imza atıb. Arsenalını modern tələblərə cavab verən hərbi texnikalarla zənginləşdirməklə yanaşı, öz müdafiə sənayesini də düzgün təşkil etməklə hərbi qüdrətini daha da artırır. Ölkəmizin hərbi qüdrətinin artması regionda daimi sülhün təmin olunmasına hesablanıb.

Xalqımızın keçmişində onların birliyini şərtləndirən və sarsılmaz zəncir yaradan hadisələr çox olub. Bu hadisələrdən ən önəmlisi hərbi-siyasi tarixi əhəmiyyət kəsb edən hadisələrdir ki, öz varlığı və bütövlüyü uğrunda aparılan mübarizə, mübarizələrin ən ümdəsidir. Tarixin mətanət, rəşadət və cəsarət simvolunu yaradan xalqımızın Vətənin ən çətin anında ayaqlanması, mübarizəyə qalxması onun qüdrətinin və yurduna bağlılığının əsas göstəricisidir. 2020-ci ilin Tovuz döyüşləri zamanı savaş meydanında qəhrəmancasına şəhadətə yüksələn general-mayor Polad Həşimovun bu xəbəri xalqı ayaqlandırdı. Yaşından, vəzifəsindən asılı olmayaraq hər kəs düşməndən bütün şəhidlərimizin qisasını almaq üçün alışıb-yanırdı. Azərbaycan əsgəri olmaq, əsgər rütbəsindən general rütbəsinə qədər Vətənə canını fəda etməyə hazır olmaq deməkdir. Baş verənlər bütün dünyaya Vətən sevgisinin nə demək olduğunun bariz nümunəsi idi. Hərb tarixini də Vətən sevgisi şərtləndirir. Necə ki, 2020-ci il sentyabrın 27-dən xalq-ordu-Ali Baş Komandan birliyindən yaranmış "Dəmir Yumruq" bizim hərb tariximizin əsas simvollarından birinə çevrildi.

Azərbaycan Ordusunun 2016-cı ildən bu günümüzə qədər apardığı uğurlu hərbi əməliyyatlar hərbi strategiyamızın, taktikamızın, hərbi texnologiya və milli ideologiyamızın uğurla təşkilinin göstəricisi oldu. Şanlı ordumuz və onun komandanlığı sübut etdi ki, müharibə təkcə güclərin savaşı deyil, həm də ağıl və məntiqin savaşıdır. Məlumdur ki, dahi sərkərdələrin apardığı strateji həmlə və onların qüvvələrinin həmləri uğurla yerinə yetirməsi dövlətin hərb tarixini formalaşdırır. Müharibə də elə budur, döyüşlərin gedişatı, zəruri strategiya və taktiki manevrləri ilə yaddaşlara köçürülür. Elə bizim tarixi Zəfərimizə gedən döyüş yolu da hərb tarixinin səhifələrinə qızıl hərflərlə əbədi olaraq həkk olundu. Və bu hərb tarixi bu gün də mütəxəssislər tərəfindən öyrənilir.

Ərazinin relyefindən, hava şəraitindən, günün vədəsindən asılı olmayaraq uğurlu hərbi strategiya sayəsində qurulmuş taktiki manevrlər düşmənin uzun illər "möhkəmləndiyi" mühəndis-istehkam sədlərini qısa vaxtda darmadağın etdi, tarixi torpaqlarımızda üçrəngli şanlı bayrağımızın dalğalanması ilə nəticələndi. Müasir dövrdə şanlı qəhrəmanlıq salnaməsi yazıb dünyaya özünü döyüşkən, qalib və ədaləti bərpa edən xalq olaraq sübut etdi. Bir sözlə, hərb tarixi hər bir dövlətin qüdrət möhürüdür. Bizim qüdrət möhürümüz də qazandığımız Böyük Qələbəmiz oldu. Uzun illərdir aparılan və hərtərəfli düşünülmüş hərbi strategiya qarşıya qoyulan tapşırıqların ordumuz tərəfindən nəzərdə tutulmuş taktika ilə yüksək səviyyədə icrasını təmin etdi.

Bütün bunlara ordumuz Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi sayəsində nail oldu. Bu gün qürurla qeyd edirik ki, İlham Əliyev rəhbərlik etdiyi xalqı, dövləti və ordunu zəfərə çatdırmaqla adını Azərbaycan tarixinə qızıl hərflərlə yazan Lider və Komandandır.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# İdrak savaşlarının təzahürləri: ideoloji təhlükəsizlik və hibrid təhdidlər

*İdrak savaşları - "Koqnitiv müharibələr" (KM) NATO tərəfindən 2020-ci ildən başlayaraq metod və termin olaraq hərbi doktrinalarda, eləcə də dünyada baş verən münaqişələrdə geniş istifadə olunur. Bu tip əməliyyatlar psixoloji təsir mexanizmlərinin, informasiya müharibələrinin tərkib hissəsidir.*



Tarixə nəzər saldıqda, görürük ki, İdrak savaşlarına aid edilə biləcək tədbirlər əməliyyat planında nəzərdə tutulmasa da, sistematik xarakter daşımasa da, zərurət yarandıqda döyüşün bəzi məqamlarında rəqibə təsir məqsədilə uğurla tətbiq edilir və yüksək nəticələr əldə olunur. Bu növ əməliyyatlar qarşı tərəfi ruhən və mənəvi cəhətdən sarsıtmaq, döyüşçülərin qəlbinə qorxu salmaq, qələbə əzmini zəiflədərək inamsızlıq hissi yaratmaq üçün aparılır. Psixoloji təsir məqsədilə döyüşdən öncə, yaxud döyüşün gedişində müxtəlif metodlardan istifadə edildiyi barədə müharibələr tarixində çoxlu sayda nümunələr mövcuddur.

Müasir dövrdə isə ən yeni forma və metodları özündə cəmləşdirən koqnitiv təsirli əməliyyatlar əvvəlcədən düşünülmüş, planlı şəkildə qısa və uzunmüddətli məqsədlər üçün icra edilir. Elmi əsaslarla həyata keçirilən bu tip əməliyyatların başlıca məqsədi təkcə döyüşçülərin deyil, rəqib dövlətin bütün əhalisinin beynini, zehnini kompüter sistemi kimi sındırmaq və insan idrakının əməliyyatda qarşıya qoyulan məqsədlərə uyğun formaya gətirilməsi üçün beyinlərə "virus" yerləşdirməkdən ibarətdir. Bu da ölkənin demoqrafik quruluşunu çökdürmək məqsədi daşıyır.

Müasir KM metodlarının xarakterik xüsusiyyəti rəqib tərəfin fərdi və kollektiv psixikasına, atacağı addımların yönləndirilməsinə, məlumatı düzgün qavramaq qabiliyyətinə təsir üsullarıdır. Dolayı yollarla fiziki cəhətdən öldürücü olmayan, təlqin, təşviq, sövqetmə, məcburetmə metodları ön plana çəkilir. Yumşaq qeyri-fiziki güc, iqtisadi sanksiyalar, cəmiyyəti parçalayaraq istənilən səmtə yönləndirilməsi, "müxalif" qüvvələrə maliyyə, silah-sursat, informasiya dəstəyi, "qara piar yönümlü" təbliğatın aparılması, informasiya qarşıdurmalarının yaradılması - məhz bütün bunlar sərt hərbi güc alətləri ilə birlikdə tətbiq edildikdə müasir silahlı münaqişələrin mahiyyətini, məqsədini, sürətini, intensivliyini müəyyən edir. Buna misal olaraq son illər Kosovoda, Afrika ölkələrində, İraq və Suriyada baş verən münaqişələri misal göstərmək olar.

Koqnitiv müharibə metodları son 20 il ərzində geniş istifadə olunsa da, böyük mənada bu daha çox gələcəyin fenomenidir. Əvvəlki məqalədə də qeyd etdiyimiz kimi, transmilli aktorlar tərəfindən bu sahədən olan layihələrin tərəqqisinə, strateji və hərbi məqsədlərdə tətbiqinə yönəlmiş layihələrə böyük səxavətlə investisiyalar qoyulur, milyardlarla vəsait xərclənir. Ötən məqalədə yaxın və orta perspektivlərdən bəhs etmişdik. Baş verən proseslər onu deməyə əsas verir ki, KM əməliyyatlarının gələcək perspektivlərində qarşıya qoyulan məqsədlər daha uzunmüddətli olacaq. İnsan zehni, beyinlər uğrunda döyüşlər bir neçə ili, hətta onillikləri əhatə edəcək və mütləq planlı şəkildə, fasiləsiz həyata keçiriləcəkdir, çünki insan beyninə yürüdülən dağıdıcı həmlələr səngisə, müsbət təsirlər nəticəsində insan baş verənlərə daha şüurlu yanaşacaq və hadisələrin əsl mahiyyətini anlayacaq. Odur ki, müsbət müdaxilələr nəticəsində insan beyninin özünübərpa xüsusiyyətlərini nəzərə alan düşmən qüvvələrin uzunmüddətli perspektivləri hədəf seçdiyi koqnitiv əməliyyatlar fasiləsiz olaraq həyata keçirilir və məqsədə tam nail olunmayınca dayandırılmır.

KM əməliyyatının təsiri nəticəsində insan qədim zamanlardan tətbiq edilən manqurtlaşma xüsusiyyəti qazanır və bu səbəbdən ətraf mühitlə bütün insani bağlar qopur, zehnin müsbət xüsusiyyətləri tamamilə silinir. Həmin manqurt-zombi əslə heç kimlə, valideyn, qohum-əqrəba, milli-mənəvi dəyərlər, cəmiyyət, dövlətin qanunları və xalqın əxlaqi prinsipləri ilə hesablaşmır, yalnız "ağasının" verdiyi istiqamət və meyarlar üzrə hərəkət edir. Bu zəhərli manipulyasiyalara məruz qalmış beyinlər yüz illər boyu kök salmış əxlaqi dəyərləri, mənəvi qanunları belə unudur və zaman keçdikcə zehinləri zəhərlənmiş həmin adamlar tarixin yazdığı bütün şərəf kodekslərini belə heçə sayan davranışların sərgilənməsini normal hesab edəcəklər.

Əminliklə qeyd edə bilərik ki, sürətli şəkildə inkişaf etdirilən "Beyinlər uğrunda müharibə" növbəti yüzilliklərdəki münaqişələrdə məqsədlərə nailolma yollarının prioritet istiqamətlərindən biri olacaqdır. Yaranmış bu vəziyyət haqq-ədalət naminə həmrəy olmağı, beynəlxalq və milli hüquq normalarına, müharibə qanunlarına, sosial nəzarət metodlarına, hərbi əməliyyatların idarə edilməsi və aparılması ilə bağlı bir sıra əsas normativlərə, direktivlərə, ideyalara təcili olaraq, vaxt itirmədən yenidən baxılmasını, köklü dəyişikliklər edilməsini tələb edir.

Sevindirici haldır ki, ölkəmizdə ideoloji təhlükəsizlik, hibrid təhdidlərə hazırlıq, kiber müdafiə sayəsində böyük işlər görülür və artıq əhəmiyyətli uğurlarımız da vardır. Yerli kompüter proqramlarının və innovasiya texnologiyalarının inkişafı, milli sosial şəbəkələrin, paylaşım-mesajlaşma platformalarının yaradılması ilə bağlı nəhəng layihələr icra olunur və onların vasitəsilə ölkəmizin mənafeyinə uyğun təbliğat, təşviqat işləri həyata keçirilir. Misal olaraq elektron hökumət portalı, "ASAN xidmət" və bir çox fəaliyyət sahələrinin rəqəmsallaşmasını və onlar üzərindən paylaşılan reklam çarxlarının və təbliğat videolarının xalqımızın adət-ənənələrinə bağlılığını göstərmək olar.

Bu mövzuya xüsusi diqqət ayırmağımıza səbəb manipulyasiyalar vasitəsilə həyata keçirilən idrak savaşı əməliyyatları sayəsində müəyyən vaxtdan sonra atdığı addımın fərqinə varmayan, qoşulduğu prosesin nəticəsini, fəsadlarını düşünməyən, düşünməyi bacarmayan, yaxud da düşünmək istəməyən, ruhi rahatlıqdan çox yalnız şəxsi maddi-fiziki rahatlığını, mənfəətini düşünən yeni şəxsiyyətin formalaşdırılması perspektivi olduqca yüksəkdir.

Beyin mərkəzlərindən idarə olunan manipulyasiyalar rasional, müsbət faktorlarla yenicə tanınmağa başlayan, inkişafa qədəm qoymuş, yaxud uzunmüddətli perspektivi olan, iqtisadi yüksəlişdə uğurlar əldə etmiş müstəqil şirkətlərin, ölkələrin özlərinin maraqlarına uyğun deyil, ancaq transmilli oyunçuların, yaxud rəqib dövlətlərin maraqlarına uyğun təbliğinə və təşviqinə böyük dəstək olur. Manipulyasiyalar sayəsində qiymətləndirmələr həyata keçirilir, lazımi əhval-ruhiyyə yaradılır, həmçinin bir hadisə və ya şəxs haqqında ziyanverici mənfi fikirlər dolayı yollarla fərdlərə, insan qruplarına və bütövlükdə cəmiyyətə sistemli şəkildə təqdim edilir. Nəticədə zehinlərə yeridilən fikirlərin böyük insan toplumu tərəfindən düşünülmədən, mahiyyəti, nəticəsi, yarada biləcəyi fəsadlar dərk edilmədən qəbul edilməsinə nail olmaq mümkün olur.

Sosial şəbəkələr üzərindən paylaşımlar və xəbərlərin mübadiləsinin çoxşaxəliliyi, paylaşım tempi, məlumatların sürətli axını izləyiciləri ani şəkildə reaksiya verməyə vadar edir. Beləliklə, "sürətli düşünmə" (refleksiv, emosional reaksiya) mexanizmi işə salınır. İnformasiyaların sürəti qarşısında təslim olan insanlara "yavaş düşünməyə", yəni, daha rasional düşüncəli olmağa, təhlillər aparmağa, götür-qoy etməyə, "yüz ölçüb, bir biçib" hərəkət etməyə, "asta olan usta olar" amilinə nail olmağa, sözün əsl mənasında, imkan qalmır.

Fikrimizcə, dünya səviyyəsində mümkün olmasa da, beynəlxalq qurumlar, alyanslar, təşkilatlar, forumlar çərçivəsində "super güclərin" yürütdüyü KM-in təsirindən qorunmaq üçün təxirəsalınmaz təsirli tədbirlərin görülməsi mümkündür. Bu məsələdə, yəni, insanların idrakının, zehninin milli-mənəvi dəyərlərə bağlılığının qorunmasında ən böyük yük məhz dövlətin və onun nəzarətində olan təbliğat-təşviqat qurumlarının üzərinə düşür. Lakin bu tədbirlərin uğur qazanmasının açarı həmrəylikdədir. Cəmiyyətin bütün təbəqələri səfərbər olunmalı, birlikdə, qarşılıqlı əlaqədə fəaliyyət üçün səmərəli kommunikasiya təmin edilməlidir. Həmçinin söz, mətbuat, iradə azadlığı, demokratiya, plüralizm kimi dünyəvi dəyərlərin arxasında gizlənməklə xaricdən alınan maliyyə vəsaitləri sayəsində fəaliyyət göstərən, düşmən dəyirmanına su tökməyə çalışan, xalqın mənafeyinə, dövlətin maraqlarına zidd addımlara can atan müstəqil strukturların da özbaşınalığına göz yumulmamalıdır. Hesab edirik ki, ölkə daxilində fəaliyyət göstərən informasiya agentliklərinin, beyin mərkəzlərinin, "beynəlxalq demokratiya institutlarının", QHT-nin fəaliyyətini tənzimləyən hüquqi-normativ aktlar müasir dövrün tələb və təhdidlərinə müvafiq olaraq, eləcə də ölkənin milli, strateji və təhlükəsizlik maraqları nəzərə alınmaqla daima təkmilləşdirilməlidir.

Düşünürük ki, dövlətlər tərəfindən aparılan düzgün informasiya siyasəti, müsbət aspektlərlə zəngin təbliğat kampaniyaları hər bir xalqın genetik mənbələrini dərindən dərk etməsinə, öz tarixi köklərinə, mentalitetinə bağlılığını, milli-mənəvi dəyərlərə sevgisini təmin etməklə, tətbiq olunan zərərli informasiya axını ilə üz-üzə gələn insanlara böyük dəstək olacaqdır. Bu sahədə müsbət nəticələri əldə etmiş ölkələrin təcrübəsi dəyərləndirilməli və qarşılıqlı təcrübə mübadiləsi təmin olunmalıdır.

**İsa İSMAYILOV**
**ehtiyatda olan polkovnik-leytenant**
**hərbi jurnalist,**
**Nadiyə QAFAROVA**
**publisist, tərcüməçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü**

# Son 4 ildə 179 min 186 hektar ərazi mina və partlamamış sursatlardan təmizlənib

*Son 4 il ərzində (2021-2024-cü illər) 179 min 186 hektar ərazi mina və partlamamış sursatlardan təmizlənib. 2020-ci ilin noyabr ayından ilin sonunadək təmizlənən 605,8 hektar ərazini də nəzərə alsaq, 2024-cü ilin sonuna kimi 179 min 791,8 hektar ərazinin mina və partlamamış sursatlardan tamamilə təmizləndiyini deyə bilərik. Ötən ildə isə işğaldan azad olunan ərazilərdə 62 min 23,9 hektar ərazi mina və partlamamış sursatlardan təmizlənib. Bu da əvvəlki ilin göstəricisi ilə müqayisədə 16,8 faiz çoxdur.*

AZƏRTAC xəbər verir ki, bu barədə məlumat Media Təhlil Mərkəzinin (MTM) hazırladığı təhlildə yer alıb.

Aparılan təhlil zamanı məlum olub ki, işğaldan azad olunan ərazilərdə ötən il həyata keçirilən minatəmizləmə əməliyyatları zamanı 2 min 372 tank və 4 min 286 piyada əleyhinə mina aşkar edilərək zərərsizləşdirilib. Ümumilikdə isə işğaldan azad olunan ərazilərdə son 4 ildə (2021-2024-cü illər) 18 min 411 tank, 29 min 250 piyada əleyhinə mina aşkarlanaraq zərərsizləşdirilib.

Minatəmizləmə əməliyyatlarını Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA), Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi (FHN), Dövlət Sərhəd Xidməti (DSX) və dörd özəl şirkət yerinə yetirir.

İşğaldan azad olunan ərazilərdə ötən il 59 min 163 partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib. Xatırladaq ki, işğaldan azad olunmuş ərazilərdə son 4 il (2021-2024-cü illər) ərzində aşkarlanaraq zərərsizləşdirilən partlamamış hərbi sursatların sayı 119 min 104-dür.

Təhlil zamanı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın Tədbirlər Planına əsasən, 2022-2025-ci illər ərzində 215 min hektar ərazinin minalardan təmizlənməsinin nəzərdə tutulduğu məlum olub. Plana uyğun olaraq, hazırda 159 min hektardan artıq ərazi minalardan təmizlənib. Bu da o deməkdir ki, müddətin bitməsinə bir il qalsa da, dövlət proqramında nəzərdə tutulan ərazinin 73,95 faizi minalardan təmizlənib.

Bundan başqa, Tədbirlər Planında 2026-cı ilin sonuna kimi işğaldan azad olunmuş ərazilərdə minalardan təmizlənmiş ərazilərin sahəsinin 280 min hektara çatdırılması qeyd edilib və bu işin 56,79 faiz hissəsi icra olunub.

## Hərbi texnikalar, silahlar

### Çində dünyanın ilk uçan və su altında üzən dronu hazırlanıb



"South China Morning Post" nəşri məlumat verir ki, çinli alimlər dünyada ilk dəfə sualtı qayıqdan buraxılan və həm su altında üzə, həm də uça bilən pilotsuz uçuş aparatı hazırlayıblar.

AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, alimlərin sözlərinə görə, açılıb-bağlanan qanadlarının unikal konstruksiyası hesabına dron bir uçuşda hava və su məkanı arasında bir neçə dəfə yerini dəyişə bilir ki, bu da onun maskalanma və xilas olma imkanlarını xeyli artırır.

Uçmaq üçün istifadə etdiyi pərlərini aparat 5 saniyə ərzində yığır və füzelyaja kip bağlanır. Bu isə onun suya qarşı müqavimətini xeyli azaldır. Aparatın xüsusi üzgüçülük vintləri onun su altında hərəkətini təmin edir. Dron sualtı qayıqdan buraxılır, missiyası bitəndən sonra həmin yerə də qayıdır. Havada yüksək manevr qabiliyyəti və su altında işləmə imkanları aparatı kəşfiyyat və zərbə endirmək üçün istifadə etməyə şərait yaradır.

## Maraq dünyamız



### 9 milyon il yaşı olan köpəkbalığı qalıqları tapılıb

Yanvarın 20-də Peruda paleontoloqlar bir vaxtlar Sakit okeanın cənubundakı sularda məskunlaşan və sardina balığı yeməyi sevən böyük ağ köpəkbalığının qohumunun 9 milyon illik qalığını aşkar ediblər.

Təxminən tam olan "Cosmopolitodus Hastalis" adlı köpəkbalığı fosili Limadan təxminən 235 kilometr cənubda, qədim dəniz növlərinin tez-tez kəşfləri ilə məşhur olan isti, səhra bölgəsi olan Perunun Pisko hövzəsində tapılıb.

Köpəkbalığının böyük ağ köpəkbalığının əcdadı olduğuna inanılır. İndi onların nəsli kəsilib. Bu dəniz heyvanının dişlərinin uzunluğu 8,9 santimetrə çatırdı, uzunluğu isə yeddi metrə yaxın olub.

Tədqiqatçılar qədim köpəkbalığının qalıqlarını bir neçə şüşə qabda, o cümlədən nəhəng, iti dişli çənəsi olan bir qabda təqdim ediblər. Təqdimatda paleontoloq Mario Urbina deyib: "Dünyada tam köpəkbalığı [fosilləri] çox deyil. Onların açıq dənizlərdə və okeanlarda üzdüyü zaman kilkə hələ mövcud olmadığından, sardina dəniz yırtıcıları üçün əsas qida mənbəyi təşkil edirdi.

Peru paleontoloqları noyabr ayında Pisko və İca kənd təsərrüfatı bölgəsinin tapıldığı Perunun mərkəzində 10 milyon il əvvəl yaşamış gənc timsahın qalıqlarını da təqdim ediblər.

Keçən ilin aprelində tədqiqatçılar bir vaxtlar Amazonda təxminən 16 milyon il əvvəl məskunlaşmış bu günə qədər məlum olan ən böyük çay delfininin daşlaşmış kəlləsini nümayiş etdiriblər.



### 11 milyon il əvvələ aid balina skeleti tapılıb

Almaniyada könüllülərdən ibarət arxeoloji qrup Şleyzviq-Holştayn əyalətinin Qros Pampau (Böyük Pampau) icması yaxınlığında 11 milyon il əvvələ aid olduğu ehtimal edilən balina skeleti aşkarlayıb.

Antiq Şimal dənizində yaşamış dişi balinaya aid qalıqların yaxşı vəziyyətdə qalması nadir tapıntı kimi onun əhəmiyyətini daha da artırır. Uzunluğu 3,5 metr olan skelet demək olar ki, bütöv halda aşkarlanıb.

Qros Pampaudakı çınqıllı ərazi təxminən 11 milyon il əvvəl Miosen dövrünə aid fosillərin aşkarlandığı nadir yerlərdən hesab olunur.

**AZƏRTAC-ın materialları əsasında**

## Xəbərlər: hadisələr, faktlar



### Almaniyanın silah ixracı 2024-cü ildə 13,3 milyard avroya çatıb

Almaniya hökuməti 2024-cü ildə rekord məbləğdə - 13,33 milyard avroluq silah satışını təsdiqləyib.

TASS agentliyi xəbər verir ki, bu, Almaniya İqtisadiyyat Nazirliyinin Bundestaqın "Sara Vaqenknext ittifaqı - ağıl və ədalət naminə" qrupundan olan deputatı Sevim Dağdelenin sorğusuna verdiyi cavabdan məlum olub. Həmin məbləğin yarısından çoxu - 8,15 milyard avro Ukraynaya göndərilib.

2023-cü ildə Almaniyadan hərbi ixracın həcmi əvvəlki ilin göstəricisini demək olar ki, 10 faiz üstələyərək 12,13 milyard avroya çatıb. Döyüş silahlarının payı 61 faiz təşkil edib. Ukraynadan sonra ikinci ən böyük alıcı ölkə 1,21 milyard avro ilə Sinqapur olub. Sonrakı yerlərdə Əlcəzair (558,7 milyon avro), ABŞ (319,9 milyon avro) və Türkiyə (230,8 milyon avro) qərarlaşıb.

Almaniya Ukraynaya ABŞ-dan sonra ikinci ən böyük silah tədarükçüsüdür. Berlin indiyədək Kiyevə təxminən 28 milyard avro məbləğində hərbi dəstək üçün vəsait ayırıb və gələcək xərcləri öhdəsinə götürüb. 2025-ci ilin büdcəsi ilə bağlı razılaşmaya əsasən, Almaniya Ukraynaya hərbi dəstək üçün təxminən 4 milyard avro ayırmalıdır ki, bu da 2024-cü illə müqayisədə iki dəfə azdır. Lakin büdcə hələ Bundestaq tərəfindən təsdiqlənməyib.

### Qazaxıstan ordusunun sıralarında ehtiyatda olan hərbçilər qulluq edəcək

Qazaxıstan Məclisi ehtiyatda olan hərbi qulluqçular haqqında qanun layihəsinə düzəlişləri təsdiq edib.

"Kazinform" xəbər verir ki, bu yenilik silahlı qüvvələrin komplektləşdirilməsində əlavə mexanizm olacaq. Bu layihənin icrası ehtiyatda olan hərbçilərin əsas hərbi-uçot ixtisasları üzrə hazırlanmasına yönəlib.

Ehtiyatda xidmət hərbi hissələrin hazır olmasının müddətini qısaldacaq. Çünki ehtiyatda olanlar birbaşa hərbi hissələrə göndəriləcək və formalaşdırılan bölmələrin döyüş hazırlığı artırılacaq.



Qanunla "ehtiyatda olan hərbçi" anlayışı qüvvəyə minir. Toplanış və ya təlimlər zamanı ehtiyatda olan şəxs hərbçi statusu alır.

İlkin mərhələdə Müdafiə Nazirliyi ölkə üzrə 2 minə yaxın ehtiyatda olan hərbçi toplamaq niyyətindədir. Ehtiyatda xidmət sisteminin 2025-ci ildə işə düşməsi planlaşdırılır. Bu, ordunun hazırlığının təkmilləşdirilməsi üzrə aparılan işin bir hissəsidir.

### Ukrayna və Almaniya birgə hərbi-müdafiə müəssisəsi açıb



"Leopard 2" tanklarını istehsal edən Almaniyanın "KNDS Deutschland" şirkəti Ukraynanın müdafiə şirkətlərindən biri ilə rəsmən birgə müəssisə açıb.

Bu barədə Ukraynanın strateji sənaye naziri German Smetanin bildirib.

"KNDS Deutschland" ilə Ukraynanın müdafiə müəssisələrindən biri arasında birgə müəssisənin rəsmi açılışını elan etməkdən məmnunam", - deyə Smetanin əlavə edib.

Nazirin sözlərinə görə, yeni yaradılan şirkət alman şirkətinin Ukrayna Müdafiə Qüvvələrinə verdiyi hərbi texnikanın texniki xidməti və təmiri üzrə ixtisaslaşacaq.

"Ukraynalı mütəxəssislər artıq Almaniyada təlim keçiblər və ilk sistemlər artıq obyektlərdə quraşdırılıb", - deyə Smetanin bildirib.

Birgə müəssisənin işi həm də investisiya və iş yerləri vasitəsilə iqtisadiyyatı əhəmiyyətli dərəcədə dəstəkləyəcək.

Xatırladaq ki, hələ 2024-cü ilin martında Paris və Berlin, xüsusən də tanklar istehsal edən Fransa-Almaniya şirkəti KNDS-ə Ukraynada filial yaratmaq imkanı verəcək razılaşma əldə etmişdilər.

**AZƏRTAC-ın materialları əsasında**

## İdman

### Bakıdakı Dünya Kubokunda 38 ölkənin idman gimnastı yarışacaq




Bakıda keçiriləcək idman gimnastikası üzrə Dünya Kubokunda 38 ölkədən olan idmançılar mübarizə aparacaqlar.

Qeyd edək ki, yarış martın 6-9-da təşkil olunacaq.

### Dünyanın ən yaxşı gənc futbolçularının adları açıqlanıb



Böyük Britaniyanın nüfuzlu "Give Me Sport" nəşri dünyanın 21 yaşa qədər ən yaxşı gənc futbolçularının adlarını açıqlayıb.

25 oyunçunun yer aldığı siyahıya İspaniya millisinin və "Barselona"nın 17 yaşlı hücumçusu Lamin Yamal başçılıq edir. İngiltərə yığmasının və İspaniya nəhəngi "Real Madrid"in 21 yaşlı yarımmüdafiəçisi Cud Bellinqem ikinci, "Bavariya"nın almaniyalı gənc ulduzu Camal Musiala (21 yaş) isə üçüncü sırada qərarlaşıb.

Dünyanın ən yaxşı gənc futbolçuları:

1. Lamin Yamal - 17 yaş ("Barselona", İspaniya)
2. Cud Bellinqem - 21 yaş ("Real Madrid", İspaniya)
3. Camal Musiala - 21 yaş ("Bavariya", Almaniya)
4. Florian Virtz - 21 yaş ("Bayer", Almaniya)
5. Kobbi Meynu - 19 yaş ("Mançester Yunayted", İngiltərə)
6. Endrik - 18 yaş ("Real Madrid")
7. Xavi Simons - 21 yaş ("Leypsiq", Almaniya)
8. Arda Gülər - 19 yaş ("Real Madrid")
9. Uorren Zaire-Emeri - 18 yaş (PSJ, Fransa)
10. Qavi - 20 yaş ("Barselona")

### Tarixin ən zəngin boksçularının adları açıqlanıb



Böyük Britaniyanın məşhur "GiveMeSport" nəşri tarixin ən zəngin boksçularının reytinqini dərc edib.

Siyahıya ABŞ-dan olan keçmiş dünya çempionu Floyd Meyvezer başçılıq edir. Veteran idmançının ümumi qazancı 400 milyon dollardır. Onun həmyerlisi ağır çəkidə dünya çempionu Corc Forman (300 milyon avro) ikinci olub.

İlk "üçlüy"ü isə meksikalı Kanelo Alvares (250 milyon) tamamlayıb.

**AZƏRTAC-ın materialları əsasında**

Məsul katib: mayor Ceyhun CƏFƏRLİ

Telefonlar: Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız: Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı: Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi: baş leytenant Elçin İMANOV

Lisenziya № 361 Sifariş № 15 Nüsxə 3663